**(5)**

# B. VAHABZADƏ POEZİYASI ZAMAN, POETİK İNTELLEKT VƏ YARADICI İDRAK FƏALLIĞI KONTEKSTİNDƏ

**Aşiqi MƏNSUR Məhəmmədəli oğlu**[3]

## XÜLASƏ

M.M.Aşiqinin "B. Vahabzadə poeziyası zaman, intuitiv düşüncə və yaradıcı idrak fəallığı kontekstində" adlı məqaləsində xalq şairinin lirikası yeni aspektdən araşdırılır. Müəllif psixoloji təhlil nəticəsində belə bir qənaətə gəlir ki, B. Vahabzadə sosial-psixoloji xüsusiyyətləri qəsdən, bilərəkdən ədəbiyyata gətirməklə onları ideoloji məramını ifadə etmək vasitəsinə çevirir.

Zamanın xarakterini, insanın dəyişən həyatda keçirdiyi hiss və həyəcanları əks etdirmək həm də sənətkardan zamanı duyub dərk etmə, onunla dialoqa girmə qabiliyyəti – həyati əsası olan poetik intellekt və məqsədyönlü fəaliyyətə bağlı yaradıcı idrak fəallığı tələb edir. Başqa sözlə desək, xarici aləmin yaradıcılıqla əks olunması, elmi-fəlsəfi idrakla bədii düşüncənin əlaqələrinin güclənməsi bütün zamanlarda təfəkkür tərzinin, təxəyyül qüdrətinin əsasını təşkil edir.

Ədəbiyyatda zaman başlanğıc və sonsuzluq anlamında mücərrəd bir anlayış kimi deyil, əbədi dünyanın, sonsuz zamanın bir payı və insanın onu necə yaşaması anlamındadır. Ona görə də sənətkar, "zamanın nəfəsini divarlarında duyur, addımını yazı masasında hiss edir" (1, 20), "həyat yollarından ayaqları ilə deyil, əqidəsi ilə keçdiyini" (2, c.2, 11) - ictimai mühitdə mövqe tutmaqla öz böyük missiyasını yerinə yetirə bilməyin mümkünlüyünü bəyan edir.

Zamanla dialoq, zaman - insan ilişkisini günün aktual problemi kimi canlandırıb fəlsəfi-psixoloji səpgidə mənalandırmaq B.Vahabzadə poeziyasının başlıca xüsusiyyətlərindəndir. Şair "zamanın baş küçəsiylə addımladığını" (2, c.2, 417) dilə gətirməklə onu öz içində hiss və dərk etdiyini, onunla mübarizə apara-apara yollaşdığını bəyan edir. Y. Qarayevə görə: "Bəxtiyar şeirində zamana maraq – xalqın mənəvi əbədiyyətinə, mənəvi indisinə və keçmişinə olan maraq deməkdir. Zaman onu yalnız xalqın tarixi taleyi ilə, xalqın mənəvi və əxlaqi həyat təcrübəsi ilə bağlılığı baxımından

düşündürür və narahat edir. Keçmişi də, gələcəyi də şair məhz "Vətən tarixinin" səhifələri kimi varaqlayır" (3, 7).

Həqiqətən də fəal həyat mövqeyi, sosial-psixoloji xüsusiyyətlərdən məqsədli şəkildə istifadə etməklə onları öz vətəndaşlıq məramını ifadə etmək vasitəsinə çevirmək B.Vahabzadə yaradıcılığının pafosunu müəyyən edir. Məsələn, onun "Vətən var" şeirinin lirik qəhrəmanı həyat və insan ömrü haqqındakı lirik-fəlsəfi düşüncələri ilə öz xarakerini **Rudehen Azad İslam Universitetinin Elmi Heyətinin üzvü**

bütün psixoloji gücü ilə zamanla üz-üzə qoya bilir, həyatının, varlığının, keçirdiyi iztirabların mənasını və sirlərini öz düşüncələrində əks etdirir..

İnsan, zaman, cəmiyyət haqqında şairin fərdi hiss və duyğuları getdikcə daha çox ümumbəşəri məna kəsb edir və beləliklə də zaman-insan ilişkisini fəlsəfi-psixoloji təhlil xüsusiyyəti onun yaradıcılığında özünəməxsus cəhət kimi formalaşır. Bu baxımdan "Ömür" şeirində lirik qəhrəmanın psixoloji özünüifadəsi təsirsiz ötüşmür:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək
Onun yaşamağı yanmağındadır.

---

3 AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun dissertantı, Bakü/AZERBAYCAN.

Həyati müşahidələrin, təfərrüat və təəssüratların doğurduğu hiss və həyəcanları fikir və düşüncələri ilə üzvi vəhdətdə təqdim edən şair bu şeirində insanlıq naminə yanmağı nəzərdə tutur, istər onun öz Vətənində, istərsə də Yer üzündə əmin-amanlığın, xoşbəxtliyin mənəvi ucalığa aparan yoldan keçdiyini vurğulayır. Odur ki, şeirdə obyektiv məkanla bədii məkan, obyektiv zamanla bədii zaman arasındakı fərqlər sanki itir, psixoloji-emosional ovqat o dərəcədə ictimailəşir ki, bəşəriləşir.

Şairin bu yaradıcılıq keyfiyyəti haqqında xüsusi bəhs edən tədqiqatçı "Tənhalıq" şeirini təhlil edərək belə bir qənaətə gəlir: "Tənhalıq" şeirində bu ürəksıxıcı ovqatın insanın qəlbində doğurduğu kədər və iztirabı psixoloji-emosional dəqiqliklə təsvir edən şair kainatda baş verən hadisələrin, ahəngdarlığın bütün xilqətlərin qarşılıqlı təması, ünsiyyət və vəhdəti üzərində bərqərar olması barədə düşüncələrini müxtəlif təbiət hadisələrinin poetik yozumu vasitəsilə ümumiləşdirir" (4, 13). Xalq, Vətən taleyi ilə bağlı mövzu və problemlərin izlənməsi, get-gedə psixoloji dərinliklərə enmə, eyni zamanda, şairin təşəbbüskarlıq – başqası tərəfdən məcbur edilmədən işə başlamaq və işdə yaradıcılıq göstərmək; qətiyyət - vaxtında əsaslandırılmış və davamlı qərar qəbul etmək; təkidlilik – məqsədi daim izləmək, məqsədə nail olmaq yollarında təsadüf edilən çətinlik və maneələrlə inadlı mübarizə aparmaq kimi bacarıq və keyfiyyətlərini üzə çıxarır. Onun "Haqq-ədalət gucdəmidir? Zorun, gücün var deyə sənə qul olmalıyam?" (2, c.2, 375) - bədii sualı xeyirlə şər, haqla zorakılıq, hürriyyətlə əsarət, demokratik ideyalarla total niyyətlər arasında gedən mücadilənin mahiyyətini ifadə edən, milli azadlıq uğrunda mübarizəyə səsləyən bir mühakimə və çağırış kimi bütün yaradıcılığı boyu rəngarəng formalarda səslənir. Xüsusən də psixoloji-emosional təsvir üslubunda yazılmış "Gülüstan" poemasında Azərbaycan xalqının başına gətirilmiş faciənin miqyası, parçalanmış, azadlığı əlindən alınmış xalqın acı taleyi şairin keçirdiyi dərin hiss və həyəcanları vasitəsilə qələmə alınır. Buradakı lirik "mən", eyni zamanda, xalqın uzun illər yığılıb qalmış hiss və həyəcanlarını, arzu və iradəsini ifadə etdiyinə görə bitkin və ümimi bir obrazdır. Bu baxımdan, əsərdə lirik qəhrəmanın tarixi faciəyə münasibəti müəyyənləşdirici vəzifə yerinə yetirir: xalqın "Gülüstan" müqaviləsinə münasibəti birmənalı olaraq dözülməzdir, bu mənhus müqavilə lənətlənir. Eyni zamanda müəllif hadisəyə qeyri – bu faciəni törədən tərəflərin münasibətlərini də kənarda qoymur. Beləliklə, bədii konflikt, əslində, eyni hadisəyə bir-birinə kəskin surətdə zidd olan baxış, mövqe və münasibətdən doğan psixoloji konflikt kimi elə əsərin əvvəlindən təzahür edir. Poemada mövqenin hadisəyə qiymət, zaman-məkan xarakteristikası, ideoloji, psixoloji planlarını əhatə eydiyini görürük.

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı (5, c.1, 532)

Yaxud:

Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola,
baxır gah sağa,
Başını yellədib təsbeh çevirir (5, c.1, 532)

Burada çar Rusiyasını təmsil edən "eynəkli cənab", fars hakimiyyətini təmsil edən "topsaqqal ağa" surətlərinin psixoloji təsvir-təqdimi müəllifin hadisəyə baxışı, münasibəti ilə bağlıdır. Şair tarixi faciəni canlandırmaq üçün bu faciəyə səbəb olan müstəmləkəçilik siyasətinin daşıyıcılarını - şəxsiyyətləri öyrənmiş, onların daxili psixoloji aləmini ümumiləşdirərək əks etdirmişdir. Eyni zamanda, şair tarixi faktları mənəvi-psixoloji amillərlə üzvi surətdə birləşdirməklə ayrı-ayrı adamların deyil, bütöv bir dövrün xarakterini və bölünməyə məhkum edilmiş Vətənin, millətin acı taleyini səciyyələndirməyə nail olur. Eynəkli, "dodağı altından gülümsəyərək kağıza həvəslə qol

atır”: Bu gülüş qalib psixoloji durumda əhval-ruhiyyəni nişan verən və böyük bir xalqı ağır psixoloji duruma gətirən bir gülüşdür:

O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə,
O güldü haqq üçün daim çırpınan
Bir xalqın tarixi faciəsinə. (5, c.1, 532)

“Gah sağa, gah da sola baxıb, təsbeh çevirə-çevirə başını yellədən» Topsaqqal isə Eynəklidən fərqli olaraq narahatdır, döyüşdə özünü uduzmuş hesab edir, “qoyulan şərtlərlə razılaşıb” müahidəyə qol çəkmək məcburiyyətindədir. Beləliklə, iki yad tərəf bir xalqı qılınc tək yarıya bölür, “böyük bir elin matəmi başlanır”. Göründüyü kimi, şair tarixi faciəni obyektivcəsinə təsvir etməklə kifayətlənmir, həm də psixoloji portretləri dəqiq və canlı şəkildə verilmiş dolğun obrazlar yaradır. Diqqəti gah hadisələrin təsvirinə yönəltməklə, gah da qəlbində tüğyan edən hiss və duyğuları qələmə almaqla tarixi faciənin doğurduğu psixoloji sarsıntıları üzə çıxarır.

B.Vahabzadə faciədən doğan psixoloji gərginliyin miqyasını ifadə etmək üçün tarixi bu günün gözüylə mühakimə edir, baiskarlara qarşı qəzəb və nifrətini bədii-psixoloji təsvir vasitələrindən istifadə yolu ilə ifadə edir. Göstərir ki, vahid bir xalqın, məmləkətin iki yerə bölünməsini hər bir Vətən oğlu özünə təhqir hesab etməlidi, bu təhqirə dözməməlidi. Şərəf, şan, yurd, torpaq - qeyrət məsələsidi, bizə babalardan əmanətdi. Şair bu kimi ifadələri milli oxucuya psixoloji təsir məqsədilə, qəsdən işlədir. Çünki Aaərbaycan xalqının milli-mənəvi təfəkküründə, psixologiyasında qeyrət yolunda ölümə gedərlər, əmanətə xəyanət yoxdur - onu qoruyub saxlamaq lazımdır!

B.Vahabzadənin digər bir sıra şeirləri də milli psixologiyanın tarixə müqavimət göstəricisinin parlaq nümunələridir. Həmin əsərlərində də imperiyapərəstlərə, qəsbkarlara və milli satqınlara qəzəb hissi şairin iç dünyasını psixoloji cəhətdən açmağa yardımçı olur. Bu baxımdan «Vətəndən-Vətənə» şeirindəki psixoloji ovqat oxucuya da təsirsiz ötüşmür. Şeirdə qardaşın qardaşla görüşə bilməməsi şairin qəlbində çox qərib duyğular oyadır və bu duyğular ötəri deyil, şairin bu şeirdən əvvəlki əsərlərində olduğu kimi, sonrakı şerlərində də cövlan edir:

İki qardaş görüşməkçün
Qürbətəmi gəlməli?
Bu sorğuya hönkür-hönkür ağlamalı,
Qəhqəhəylə gülməli! (6, c.4, 436)

Şairin “Şəhriyara”, “Səhəndə məktub”, “Bakıyla Təbrizin arasındayam”, “Biz Vətənçin doğulduq”, “Çörək-Vətən”, “Vüsalda hicran”, “Qürbətdə görüş”, “Tarixin qanunu”, “Gözəl sözlər” və s. kimi şerlərində ifadə edilən vətəndaşlıq duyğuları da emosional-psixoloji xüsusiyyətləri ilə diqqəti cəlb edir. Şair: “Hələ görməmişik, Azərbaycanın Bir yerdə, biz bütöv xəritəsini...” (2, c.2, 256), “Məftilli çəpərlər sinəmdən keçir Bakıyla Təbrizin arasındayam” (2, c.2, 554), “Vətən ölər, Vətənçin ölməyi bacarmasaq” (7, 12) - kimi sərrast misraları ilə yaralı Vətənin ovqatını, arzu və amalını dəqiq ifadə edir.

B.Vahabzadəni “insanı insan edən daxili dünyamız”, mənəvi tələblər, ehtiyaclar, “dünyanın ən gözəl dillərindən birini yaradan, son dərəcə zəngin folklora və musiqiyə malik olan xalqın son illərdə öz mənəvi dünyasına – dilinə, ədəbiyyatına, musiqisinə biganəliyi, insani hisslərin, şəfqət duyğusunun korşalması, hər kəsin yalnız özünü düşünməyə başlaması, mənəmliyin, xudbinliyin əsas keyfiyyətə çevrilməsi” problemləri düşündürüb narahat edir. “Ana dili”, “Oğluma” kimi şeirlərində göstərir ki, dilimizə biganəliyimiz, ilk növbədə tariximizə, tarixi mədəniyyətimizə, istiqlal arzularımıza zidd, imperiyapərəst qüvvələr üçün isə faydalıdır. Vətən yalnız torpaq deyil, Vətən – hər şeydən əvvəl mənəvi keyfiyyətləri ilə - bu torpağın üstündə yaşayan xalqın dili, tarixi, mədəniyyəti, adət-ənənəsi, bir sözlə ruhu və psixologiyası ilə Vətəndir, onları qoruyub gələcək nəsillərə çatdırmaq ümumi işimizin tərkib hissəsi olmalıdır.

Dünyanı düşünən vətəndaş-şairin zamanla barışmaz dialoqu bəşəriyyətin taleyi üçün narahatlıq duyğuları üzərində qurulur. Başqa sözlə desək, həyati müşahidə və təəssüratlardan doğan daxili-psixoloji yaşantıları– hiss, həyəcan və iztirabları əsərlərinin psixoloji təməlini müəyyən edir. Məsələn, "İyirminci əsr" şeirində "qoca dünyanın yeni sakinlərinin" hiss və düşüncələri lirik qəhrəmanda cəmlənib ümumiləşdirilərək ifadə edilir. Şair bu əsri ağıl, güc, əsəb, həyəcan əsri kimi qələmə verilir. Hiss edir ki, kəşf olunan atom, hidrogen silahları yalnız bir xalqın, məmləkətin deyil, bütün dünyanın fəlakətinə səbəb ola bilər. "Baş" şeirində isə şair elmi-texniki inqilabın nailiyyətlərindən hesab edilən insanın bədən üzvü kimi başın transplantasiyası hadisəsinə poetik münasibətini bildirib, təbiətin ahəngini pozmamağa çağırır.

Şairin bədii qənaətinə görə insanın taleyi ilə bağlı yaxşı və pis cəhətlər, təhlükələr indi daha çox dünyəvi xarakter daşıyır. Yəni insan bir fərd olaraq daxilən azad olmaq və öz taleyini seçmək istəyində israrlı olsa da, qlobal hadisələr və problemlər buna imkan vermir, onu öz hökmü, təsiri altında saxlayır. Ona görə də şair qəlbi "zamanın əlindən qəmlər yeyir. Lakin o, ruhən güclüdür, əqidəsi yolunda mübarizə aparmaqdan usanmır, "duyğuları ruzgar kimi aşıb-daşır", "diləyi, fikri işdən işə calanır", bu fəallığının səbəbi isə sabaha inamıdır. Şairin poetik anlamında yer üzündə sevinc də, kədər də insan tərəfindən yaradılır, ümid yenə də insanadır. O, öz inancına başqalarını da inandırmaq üçün predmetin fəlsəfi-psixoloji mahiyyətinə enməyi, hadisə arxasında gizlənən sosial məzmunu göstərməyi üstün tutur. Psixoloji ovqat və düşüncə B.Vahabzadə şeirində fəlsəfi bir ümumiləşdirmənin vahidləri kimi çıxış edir. Psixoloji təsir gücünə malik mənalı sonluq hər bir əsəri üçün səciyyəvi xüsusiyyətə çevrilir.

Bununla belə, zamanla, mühitlə mübarizədə şair özündən narazıdır, belə hesab edir ki, olub-keçənləri bilsə də, bir an sonra nə baş verəcəyini kəsdirməkdə zəkasının, intuitiv düşüncəsinin gücü çatmır:

Min il əvvəl olanları bilsəm də mən,
Bir an sonra olacağı bilməyirəm.
O bir anın qarşısında baş əyirəm. (2, c.2, 46)

Şairin bu etirafı onun poetik intellektinə kölgə salmır, insanın dünyanı və zamanı dərk imkanlarını şübhə altına almır, əksinə, insan şüurunun inkişafının ictimai-tarixi inkişaf qanununa tabe olması, bir psixi proses kimi təxəyyülün formalaşması haqqındakı elmi qənaətləri təsdiq edir. Eyni zamanda, şair ona yaxşı əmindir ki, dünya nə qədər fırlansa da, zaman onun məsləkini dəyişə bilməyəcək.

Min-min illər bu dünya beləcə fırlansa da,
Bir yuvanın bülbülü min budağa qonsa da,
Aylar, illər, fəsillər bir-birini dansa da,
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır (8, c.5, 207)

Şair demək istəyir ki, insan xarakterinin möhkəmliyi bilavasitə onun əqidəsi ilə bağlıdır, şəxsiyyətin ətraf mühitə ən şüurlu münasibətləri əqidə əsasında yaranan münasibətlərdir. Bəs şair sevə-sevə tərənnüm etdiyi Xarakterin qüvvə və səbatlılığının mənbəyini nədə görür, onun nəzərində hansı Əqidə "fırlanan dünyada" dəyişməz qala bilər? Oxucu bu sualın cavabını da şairin özündən, onun yaradıcılığından alır:

Əbədini dünyada mən əbədi sanmadım,
Bir atəşə tutuşdum, min atəşə yanmadım.
Bütlər gəldi və getdi, birinə inanmadım,
Niyə inanmalıyam, axı, dünya fırlanır (8, c.5, 206)

-beləcə, şair yenə də idrakın gücünə, insanın özünü və dünyanı dərketmə imkanlarına istinad edir, onun qələbəsini alqışlayır.

İdrak üçün hərdən dala boylansa da insan,
Yüksəlmək üçün daima idrak önə möhtac (7, 165 )

B.Vahabzadə "Sadə adamlar", "İztirabın sonu", "Etiraf", "Həyat – ölüm", "Atılmışlar", "Ləyaqət", "Qiymət" və s. kimi poemalarında da insanın daxili, mənəvi-

əxlaqi aləmi, onun ictimai gerçəkliklə təmasda dəyişməsi, mənəvi axtarışları və kamilləşməsi problemlərini qoyur. Bu əsərlərdə hadisələrin ailə-məişət, yaxud myəyyən bir əmək fəaliyyəti çərçivəsində baş verməsindən asılı olmayaraq, istər insanın mənəvi tənəzzülündə, istərsə də mənən ucalmasında cəmiyyətdəki mühitin, mənəvi-əxlaqi ab-havanın həlledici təsiri qabarıq göstərilir.

Əsrin 80-ci illərində, Sovetlər İttifaqının tənəzzülü ərəfəsində Azərbaycanda milli müstəqillik və demokratiya uğrunda mübarizə hərəkatı başlandı və Azərbaycan xalqı 1991-ci ildə, ikinci dəfə öz istiqlaliyyətini qazana bildi. Lakin o, eyni zamanda erməni təcavüzünə qarşı mübarizə aparmaq məcburiyyəti ilə üzləşdi.

İstər milli-azadlıq hərəkatında, istərsə də təcavüzə qarşı mübarizədə ilk səsini qaldıran istiqlal şairlərimizdən biri B.Vahabzadə oldu. O, hadisələrin kökünə istinad etməklə millətlərarası münasibətlərin psixoloji və məntiqi təhlilini verir, ictimai-siyasi səbəblərini açırdı. Bu baxımdan "Şəhidlər" poeması xüsusilə səciyyəvidir. Bu əsər hələ şəhidlərin qanı qurumadığı günlərdə birnəfəsə yazılmışdı, şair qəlbinin üsyan səsi idi, dili, üslubu da bu qayəyə xidmət edən iti və coşğun hərəkətin impulsiv xarakter daşıdığını göstərirdi.

Poemada yalnız konkret bir hadisənin –qanlı Yanvar qırğınının təsviri əsas yaradıcılıq məqsədi kimi qarşıya qoyulmur, əslində, şair həmin hadisənin və faktın doğurduğu qüvvətli hisslərin – affektlərin təsiri altında illər uzunu qəlbində və şüurunda yığılıb qalmış hiss və fikirləri, dərin kök salmış milli iztirabları, ağrılı həqiqətləri ifadə edir. Bu baxımdan, poemanı B.Vahabzadənin hələ 60-cı illərdə qələmə aldığı bir çox şerlərinin, xüsusilə, məşhur «Gülüstan» poemasının bir növ yeni bir şəkildə və məzmunda davamı hesab etmək mümkündür.

Qarabağ uğrunda müharibə illərində B.Vahabzadə bütün səylərini milli dövlətçiliyin qüvvətləndirilməsinə yönəltmiş, bu məqsədlə milli özünüdərk baxımından mühüm əhəmiyyət kəsb edən, Azərbaycanın müasir dövlətçiliyinin taleyi ilə, yeni müstəqil türk dövlətlərinin bu günü ilə səsləşən yeni-yeni əsərlərini yazmışdır.

## ƏDƏBİYYAT

1. Araz M. Bir ömür yolunda. / "Ulduz" jurnalı, 1983, № 1
2. Vahabzadə B. Əsərləri. II cild. Bakı: Azərbaycan, 2002
3. Qarayev Y. Düşündürən poeziya. /Vahabzadə B. Əsərləri. IV cild. Bakı: Çaşıoğlu, 2002
4. Bağırov A. Azərbaycanın Bəxtiyarı. /Bəxtiyar Vahabzadə. Bakı: Azərnəşr, 199
5. Vahabzadə B. Əsərləri. I cild. Bakı: Azərbaycan, 2001
6. Vahabzadə B. Əsərləri. IV cild. Bakı: Çaşıoğlu, 2002, , 2002
7. Vahabzadə B. Vətəndaş.Bakı: Gənclik, 1994
[8]. Vahabzadə B. Əsərləri. V cild. Bakı: Çaşıoğlu, 2002